**Türküstan qəzeti.**-2024.-4-10 iyun.-№21.-S.8-9.

## Yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətinin prioritetləri

### XIII məqalə

**Kamal Adıgözəlov**

### Azərbaycanın nəqliyyat və logistika mərkəzi rolunun daha da gücləndirilməsi

Müasir tarixi dövrdə müstəqil dövlətlərin beynəlxalq miqyasda yeri və rolu bir çox faktorlara və istiqamətlərə görə müəyyən olunur. Onların sırasında nəqliyyat marşrutları və logistika xidmətləri xüsusi yer tutur. Nəqliyyat və logistika layihələri qarşılıqlı əlaqədə müstəqil dövlətin regional və beynəlxalq miqyasda geosiyasi statusuna ciddi təsir edir. Yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətində məsələnin bu tərəfinin nə dərəcədə nəzərə alındığı aktual problemdir. Mövzuya xarici siyasətin prioritet istiqamətləri kontekstində yanaşmaq olar. Həmin bağlılıqda nəqliyyat-logistika potensialının geosiyasi analizi maraq doğurur.

### Cənubi Qafqaz və nəqliyyat-logistika faktoru: aktuallığı

Yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətinin prioritet istiqamətləri arasında "Azərbaycanın nəqliyyat və logistika mərkəzi rolunun daha da gücləndirilməsi" tezisinin yer almasının əsaslı səbəbləri vardır. Onlar sadəcə müasir mərhələdə Cənubi Qafqazın geosiyasi özəllikləri ilə əlaqəli deyillər. Qafqazda nəqliyyat-logistika faktorunun yeri və rolu haqqında geosiyasi nəzəriyyələrdə konkret fikirlər vardır. Həmin fikirlərdə regionun qlobal geosiyasi proseslər üçün əhəmiyyətini nümayiş etdirən faktorlar ifadə olunub. Onlardan aydın görünür ki, Cənubi Qafqaz geosiyasi baxımdan Avrasiya məkanı üçün xüsusi əhəmiyyət daşıyır. Bu, Helford Con Makinderin "Hartlənd" təlimində daha yaxşı ifadə olunub.

"Hartlənd" britaniyalı geostrateq H.Makinderin anlamında Avropa və Asiyanı əhatə edən geniş bir ərazidir. Onun təqdimatına görə, "Hartlənd"ə hakim olan dünyaya hakimdir. Buna görə də H.Makinder "Hartlənd"i obrazlı olaraq "tarixin coğrafi oxu" adlandırır. Həmin mənada Avrasiya üçün nəqliyyat və logistika faktorları strateji əhəmiyyət əldə edir. Çünki söhbət ticarət və təhlükəsizlikdən gedirsə, onda Avrasiyanın "nəqliyyat arteriyaları" ön plana çıxır. Məsələn, Qərblə Şərqi birləşdirən dəmir yolu tarixən əhəmiyyətli rol oynayıb (bax: 1).

Biz, öncəki məqalələrdə vurğulamışdıq ki, H.Makinderin bu mövqeyini Zbiqnev Bjezinski və Henri Kissincer kimi məşhur strateqlər inkişaf etdiriblər. Z.Bjezinski nəqliyyat aspektində Avrasiyada əsas regional gücləri xarakterizə edərkən Qafqazı Avropa ilə Asiyanı geosiyasi və geoiqtisadi olaraq birləşdirən mühüm məkan kimi təqdim edib. Bunun çərçivəsində isə Azərbaycanın iki qitə arasında "əsas geosiyasi körpü" olduğu tezisini irəli sürüb (bax: 2).

Deməli, Z.Bjezinski H.Makinderin təlimini daha da konkretləşdirərək geosiyasi aspektdə nəqliyyat marşrutlarının qlobal geosiyasət üçün daha çox önəm daşımağa başladığından yazıb. Eyni istiqamətdə H.Kissincer də fikir bildirib. O da nəqliyyat əlaqələrinin, ümumiyyətlə, Avrasiyanın geosiyasi dinamikasında başlıca rol oynadığına əsaslanaraq həmin kontekstdə əsas regional məkanları vurğulayıb. H.Kissincer də nəqliyyat əlaqələri məsələsində Azərbaycanın roluna xüsusi qiymət verib (bax: 3).

Müasir politoloqlar Avrasiya miqyasında Cənubi Qafqazın xüsusi geosiyasi rol oynadığını vurğulayır və onu Asiya ilə Avropanı birləşdirən quru nəqliyyat və ticarət yolları aspektində təhlil edirlər. Həmin kontekstdə ayrıca qeyd edilir ki, Azərbaycan hazırkı geosiyasi situasiyada Rusiya və İrana nisbətən daha çox əlaqələndirici şansa malikdir (bax:4).

Bununla yanaşı, tədqiqatçılar müasir mərhələdə Cənubi Qafqazın Avrasiya üçün nəqliyyat-logistika aspektində əhəmiyyətini yeni dünya nizamında kiçik regionların rolu prizmasından da araşdırırlar. Bu zaman təhlükəsizliyin təmini ilə iqtisadi, ticari və nəqliyyat əməkdaşlıqlarının rolu arasında bağlılığa xüsusi diqqət yetirilir (bax: 5).

Dünyanın bir çox ölkələrinin siyasi liderlərinin nəqliyyat-logistika xidmətinin strateji əhəmiyyəti haqqında fikirləri məlumdur. Onlar Cənubi Qafqaza ayrıca əhəmiyyət verirlər.

### Nəqliyyat, tranzit və logistika imkanları: geosiyasi anlamı və reallıq

Nəzəri olaraq nəqliyyat və logistika xidmətlərinin bütövlükdə dünya üçün böyük əhəmiyyətinin şübhə doğurmadığı aydındır. Bu kontekstdə Cənubi Qafqazda da nəqliyyat və logistika strateji əhəmiyyəti olan amildir. Bu regionun indiki çox həssas geosiyasi situasiyada birləşdirici rol oynaması bir çox dövlətlər üçün

həyati əhəmiyyətlidir. Bu səbəbdəndir ki, uzun illərdir siyasi liderlər, politoloqlar və geostrateqlər Cənubi Qafqazdan danışarkən nəqliyyat və logistikanı ön sıraya çəkirlər. Həmin mövzu regional və qlobal layihələrin həyata keçməsi kontekstində xüsusi vurğulanır. Bu sahədə aparılan müşahidələr nəyi göstərir?

Uzaq Çindən başlayan Yeni İpək Yolu layihəsinin reallaşması kontekstində həmişə nəqliyyat və logistika ayrıca qeyd edilir. Diqqət etsək, görərik ki, Azərbaycana səfər edən Çin, Rusiya, Türkiyə, Mərkəzi Asiya rəsmilərinin hər biri ilə müzakirələr əsasən nəqliyyat-logistika tematikası üzrə aparılır. Burada Avropa İttifaqının marağını xüsusi qeyd etmək istərdik.

Brüssel Azərbaycanla enerjidaşıyıcıları ilə yanaşı, nəqliyyat-logistika layihələrinə də böyük diqqət yetirməkdədir. Aİ ilə Azərbaycan arasında imzalanan məlum əməkdaşlıq bəyannaməsi buna bariz nümunədir (bax: 6). Həmin çərçivədə tərəflər arasında mütəmadi dialoq aparılır.

Bu məqsədlə də "Əməkdaşlıq Şurası, Əməkdaşlıq Komitəsi, Parlamentlərarası Əməkdaşlıq Komitəsi, Ticarət, iqtisadiyyat və əlaqədar hüquqi məsələlər üzrə Alt-komitə və Enerji, nəqliyyat və ətraf mühit məsələləri üzrə Alt-komitə kimi strukturlar yaradılıb. Ticarət, iqtisadi və əlaqədar hüquqi məsələlər, həmçinin Enerji, nəqliyyat və ətraf mühit məsələləri üzrə Alt-komitələr Əməkdaşlıq Komitəsinin nəzdində fəaliyyət göstərir. Enerji, nəqliyyat və ətraf mühit üzrə alt-komitə 2005-ci ildə təsis edilib" (bax: 7). Enerji, Nəqliyyat və Ətraf Mühit üzrə Alt-komitənin mütəmadi olaraq iclasları keçirilir.

Aydın görünür ki, Azərbaycanla Aİ arasında nəqliyyat və logistika sahəsində aktiv dialoq gedir və tərəflər bu məsələyə xüsusi diqqət yetirirlər.

Deyə bilərik ki, Azərbaycan bütün tərəfdaşları ilə həmin məntiq üzrə nəqliyyat və logistika məsələlərini müzakirə edir və bu proses davam edir. Əgər Prezident İlham Əliyevin Bakı-Ceyhan enerji layihəsinin işə salınmasındakı mərasimdə söylədiyi nitqdən başlayaraq bu günə qədər enerji ilə əlaqəli müxtəlif tədbirlərdə etdiyi çıxışlara baxsaq, onlarda nəqliyyat və logistikanın ayrıca vurğulandığını görərik. O cümlədən bərpaolunan və "yaşıl enerji" kimi ən müasir məsələlər üzrə əməkdaşlıqda nəqliyyat və logistika geniş yer alır.

Son illər Mərkəzi Asiya dövlətləri ilə imzalanan əməkdaşlıq sənədlərində nəqliyyat-logistika mövzusunun yer aldığı məlumdur. Bu məsələ həmişə xüsusi olaraq vurğulanır. Liderlər onun Türk Dövlətləri Təşkilatı kontekstində Orta Dəhliz marşrutu üzrə strateji vacibliyindən bəhs etmişlər. Orta Dəhliz layihəsi çərçivəsində Mərkəzi Asiya ölkələrinin Azərbaycanla əlaqələrində nəqliyyat və logistikanın çox müxtəlif aspektləri ciddi müzakirə obyekti olmuşdur. Bu baxımdan 2024-cü ilin may ayında Vaşinqtonda 8-ci Trans-Xəzər Forumunun keçirilməsi diqqətləri çəkir. Forumda Mərkəzi Asiya dövlətləri nümayəndələrinin də iştirakı ilə Orta Dəhlizin inkişafı və həmin kontekstdə Zəngəzur Dəhlizinin açılması məsələləri geniş müzakirə edilib (bax: 8).

Digər nümunə kimi Şimal-Cənub beynəlxalq nəqliyyat marşrutu ilə bağlı müzakirələrin yeni səviyyəyə qalxmasını göstərmək olar. Artıq bu layihəyə Yaxın Şərq ölkələri də maraq göstərir. Məlumdur ki, Şimal-Cənub beynəlxalq nəqliyyat layihəsinin Cənubi Qafqazda keçdiyi məkan Azərbaycandır (bax: 9).

Bütün bunlar nəqliyyat və logistikanın beynəlxalq aləm üçün böyük geosiyasi anlam kəsb etdiyini göstərir. Həm nəzəri təlimlərdə, həm də praktiki siyasi fəaliyyətdə nəqliyyat-logistika faktoru ön sırada yer alır. Çünki qloballaşan dünyada konkret əməkdaşlıq üçün etibarlı, sabit, təhlükəsiz və geniş imkanlı marşrutlar tələb olunur. Həmin marşrutlar üzrə əlaqələr elə səviyyədə olmalıdır ki, liderlərin nəzərdə tutduqları planlar həyata keçə bilsin.

Təbiidir ki, bu plan daxilində lazımi səviyyədə logistika xidməti çox vacibdir. Məsələn, rəqəmsallıq mühitində beynəlxalq əməkdaşlıqda logistik xidmətin yüksək səviyyədə təşkili prinsipial məsələyə çevrilib. Azərbaycan tərəfi Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlıqda rəqəmsallığın tələblərinə uyğun olan logistik xidmətə böyük əhəmiyyət verir.

Vurğulanan özəlliklərdən belə qənaətə gəlmək olar ki, müasir mərhələdə nəqliyyatla logistika vəhdət şəklində hər bir aktual əməkdaşlıq layihəsinin məzmununa daxil olur. Ölkələr və regionlararası əlaqələrin təşkili və nəticələri bir çox aspektlərdə məhz bu faktorlardan asılıdır. Onlar nəzərdə tutulan əməkdaşlığın reallaşmasının başlıca faktorları kimi çıxış edə bilərlər. Özü də nəqliyyat və logistika strateji xarakterli faktorlardır. Onların inkişafına həmin səbəbdən daim ayrıca diqqət yetirilir. Bu kontekstdə qarşıya belə bir sual çıxır: nəqliyyat və logistikanın inkişaf etdirilməsi yeni tarixi mərhələdə də zəruri ola bilərmi?

Biz birmənalı olaraq hesab edirik ki, nəqliyyat və logistikanın əhəmiyyəti perspektivdə də böyük olacaqdır. Hətta onun vacibliyi yeni səviyyədə özünü göstərə bilər. Bu səbəbdən müstəqil dövlətin xarici siyasətində nəqliyyat və logistikanın ayrıca istiqamət kimi nəzərdə tutulması həm məntiqi, həm də praktiki əhəmiyyətli məsələdir. Bu tezisin prizmasından yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətində nəqliyyat və logistika istiqamətinin hansı səviyyədə nəzərə alındığı üzərində dayanmaq lazım gəlir.

## Azərbaycan: nəqliyyat-logistika mərkəzi kimi

Hazırda Azərbaycan Cənubi Qafqazda nəqliyyat qovşağı və logistika mərkəzi rolunu oynayır. Bunun *iki* əlaməti vardır. Birincisi, Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin Cənubi Qafqazda əsas

məkanıdır. İkincisi, Azərbaycan Şimal-Cənub beynəlxalq nəqliyyat marşrutunun bu regionda başlıca məkanıdır.

Bu iki istiqamət Azərbaycan ərazisində kəsişirlər. Onlar birbaşa yeni logistika infrastrukturu ilə əlaqəli olduqlarından qarşılıqlı əlaqədə Azərbaycanı regionun nəqliyyat-logistika mərkəzinə çevirirlər. Bunun bir neçə geosiyasi anlamı mövcuddur.

Hər şeydən öncə, Şərqdən Qərbə və Şimaldan Cənuba daşımalar Azərbaycan ərazisi vasitəsilə həyata keçirilir. Bura demək olar ki, dünyanın bütün böyük güclərinin ticarət və nəqliyyat ehtiyaclarının bir qismi daxildir. Yəni, Çin, Aİ, ABŞ, Böyük Britaniya, Hindistan, Türkiyə, Rusiya, İran və digər dövlətlərin ticarət, nəqliyyat və başqa ehtiyaclarının ödənməsində Azərbaycan marşrutunun əhəmiyyəti getdikcə artır.

Bundan başqa, Şərq-Qərb və Şimal-Cənub istiqamətləri üzrə nəqliyyat marşrutları Orta Dəhlizdə kəsişirlər və bu, Azərbaycan ərazisində baş verir. Geosiyasi kontekstdə yeni tarixi mərhələ üçün bu faktın əhəmiyyəti çoxdur. Çünki Orta Dəhliz, faktiki olaraq, Çindən başlayaraq böyük bir ərazidə əməkdaşlığın başlıca nəqliyyat aspektini təşkil edəcəkdir. Bu səbəbdəndir ki, bütün böyük dövlətlər ilk növbədə Orta Dəhlizin işlək olmasında maraqlı olduqlarını ifadə edirlər. Əgər iki böyük nəqliyyat marşrutu – Şərq-Qərb və Şimal-Cənub marşrutları Azərbaycanda Orta Dəhlizin fəaliyyət zonasında kəsişirsə, bu, ölkənin faktiki baxımdan regionun nəqliyyat qovşağı halına gəldiyi deməkdir. Yeni tarixi mərhələdə həmin məqam xarici siyasətin prioritet istiqamətlərindən biri kimi nəzərdə tutulursa, bu o deməkdir ki, ölkə rəhbərliyi Azərbaycanın geosiyasi statusunu həmin istiqamətdə də yeni səviyyəyə yüksəltməkdə qərarlıdır.

Həmin məqamın stratejidə geosiyasi dividendlərinin böyük olacağına qətiyyən şübhə yoxdur. Çünki Azərbaycan, əslində, böyük geosiyasi təlimlərdə ifadə edilən Avropa ilə Asiya arasında əsas geosiyasi körpü funksiyasını yeni səviyyədə və genişlikdə yerinə yetirən faktora çevrilir. Bunun *iki* miqyasda rolunu dərk etmək gərəkdir. Birincisi, Azərbaycan müstəqil dövlət kimi nəqliyyat-logistika sferasında aktiv bir dövlətə çevrilir ki, bu da regional əməkdaşlığa və inteqrasiyaya ciddi töhfə vermək deməkdir. İkincisi, Azərbaycan Cənubi Qafqazda nəqliyyat-logistikanın mərkəzi kimi regionlararası əlaqələrə birbaşa böyük yardım göstərə biləcək. Hətta həmin əlaqələri təmin edən əsas məkana çevrilə bilər.

Deməli, Azərbaycan rəhbərliyi xarici siyasətin prioritetlərindən birini məhz nəqliyyat-logistika faktoru ilə əlaqələndirməklə ciddi strateji məqsədi qarşıya qoyur ki, onun nəticələrindən biri ölkənin regional liderliklə qlobal əhəmiyyətli geosiyasi oyunçu rolunu üzvi surətdə birləşdirməklə əlaqəlidir.

Nəqliyyat-logistika mərkəzi olmanın digər geosiyasi anlamı Azərbaycanın regional və qlobal təşkilatların fəal üzvü kimi fəaliyyəti nöqteyi-nəzərdən də xüsusi məna kəsb edir. Çünki Azərbaycan həmin təşkilatlar arasında nəqliyyat və logistikanın əlaqələndirilməsində xüsusi rol oynamış olur. Bu baxımdan mütəxəssislərin diqqətini daha çox Türk Dövlətləri Təşkilatı, MDB və Qoşulmama Hərəkatı arasındakı münasibətlərin gələcəyi çəkir. Onların fonunda isə Azərbaycan-Aİ münasibətləri yeni müstəvidə daha çox aktuallıq kəsb etməyə başlayır. Azərbaycan bu müxtəlif təşkilatların qarşılıqlı əlaqəsinin inkişafında hansı rolu oynaya bilər?

Məlumdur ki, Azərbaycan TDT-nin ən fəal üzvlərindən biridir. Bu təşkilat daxilində çox müxtəlif istiqamətlər üzrə əməkdaşlığın təşəbbüskarı Azərbaycandır. O cümlədən rəsmi Bakının nəqliyyat və logistika istiqamətlərində konkret proqramları TDT üzvləri ilə əməkdaşlıq şəraitində həyata keçirdiyi məlumdur. Deməli, bununla, faktiki olaraq, TDT təşkilat kimi qlobal nəqliyyat infrastrukturuna üzvi surətdə daxil olur.

Qoşulmama Hərəkatı daxilində də Azərbaycanın fəaliyyəti TDT istiqaməti ilə analogiya təşkil edir. Qoşulmama Hərəkatı daha geniş geosiyasi ərazini əhatə etdiyindən onun tərkibində nəqliyyat və logistika xidməti bir qədər başqa məzmunda təzahür edə bilər. Buna baxmayaraq, mahiyyət eynidir: Azərbaycan mühüm nəqliyyat-logistika qovşağı kimi fəaliyyətini inkişaf etdirir.

MDB ilə bağlı vəziyyət həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərinin qarşılıqlı əlaqəsində məzmunlaşır. Azərbaycanın MDB üzvləri ilə ənənəvi əlaqələri mövcuddur. İndi onlar digər təşkilatlardakı fəaliyyətə zidd olmamaq şərti ilə daha da inkişaf etdirilir. Azərbaycan hətta Rusiya ilə nəqliyyat-logistika üzrə əlaqələri yeni səviyyəyə yüksəldərək, geniş bir məkanda koordinasiyalı fəaliyyəti təmin etməkdədir.

Nəhayət, bütün bunların Aİ istiqamətində nəqliyyat və logistika sferaları kontekstində təsirləri maraq doğurur. Azərbaycanın nəqliyyat-logistika mərkəzi kimi geosiyasi rolunun əhəmiyyəti həmin aspektdə özünü daha çox göstərməkdədir. Eyni zamanda, buraya Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizi faktorunu əlavə etmək lazım gəlir. Nəticədə, Azərbaycan-Aİ əlaqələri aşağıdakı bir neçə aspektin sintezi kimi məzmunlaşır: Avropa, Qara dəniz, Qafqaz, Xəzər və Mərkəzi Asiya regionları arasında iqtisadi, ticari, nəqliyyat və logistika əlaqələrinin inkişafı, Çin və Avropa İttifaqı arasında ən qısa quru yolu üzərində qurulan multimodal dəhlizin inkişafı, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin qurulması, Böyük İpək Yolu çərçivəsində tranzit yüklərin cəlb edilməsi, logistika və ticarət infrastrukturunun əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi və tənzimləyici stimullar sayəsində regionda bu sahə üzrə Azərbaycanın daha cəlbedici qovşaq olması, Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı və Trans-Avrasiya Super İnformasiya Magistralı (TASİM) layihələri vasitəsilə Böyük İpək Yolunun rəqəmsallaşdırılması, müxtəlif nəqliyyat sahələri arasındakı əlaqələrin koordinasiya edilməsi, yük və sərnişin daşımaları üzrə beynəlxalq və daxili tariflər sahəsində uyğunlaşdırılmış

siyasəti və çoxmodallı (birləşmiş) daşımaların təşkil olunması üzrə uyğunlaşdırılmış fəaliyyət proqramının işlənib hazırlanması.

Bu aspektdə ümumi səviyyədə Azərbaycanın Avropa ilə əlaqələr kontekstində Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağı kimi statusu böyük perspektiv vəd edir. Bu statusu konkret təsdiq edən layihələrin (məsələn, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Azərbaycanın Xəzər dənizində ən böyük ticarət donanması, müasir gəmiqayırma zavodu, müasir standartlara cavab verən avtomobil yolları və s.) işlədiyi hamıya məlumdur.

Beləliklə, Azərbaycan Prezidenti böyük məharətlə ölkəni bir neçə istiqamətdə nəqliyyat və logistikanın kəsişdiyi əməkdaşlıq mərkəzinə çevirib. Və bu prosesin yeni tarixi mərhələdə davam etməsi təmin edilir. Onun əsas təzahürlərindən biri "Azərbaycanın nəqliyyat və logistika mərkəzi rolunun daha da gücləndirilməsi" müddəasının xarici siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilməsidir!

## Mənbələr


1. Mackinder, H.J. "The geographical pivot of history". The Geographical Journal, 1904, 23, pp. 421-37. Mackinder, H.J. "The Geographical Pivot of History", in Democratic Ideals and Reality, Washington, DC: National Defence University Press, 1996, pp. 175-194.

2. Brzezinski Z. The Grand Chessboard: American Primacy And Its Geostrategic Imperatives. New York: Basic Books, – 1997, – 240 pp.

3. Kissinger, H. Diplomacy. New York: Simon & Schuster, 1994, 912 pp.

4. Агазаде, М.М. Геополитическая ситуация на Южном Кавказе после Второй карабахской войны // Постсоветские исследования. – 2023, т.6, № 4, – с. 405.

5. Avdaliani, E. New World Order and Small Regions: The Case of South Caucasus. Singapore: Palgrave Macmillan; 2023, 248 pp.

6. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb // 18 iyul 2022 / URL: https://president.az/az/articles/view/56689

7. Avropa İttifaqı-Azərbaycan arasında Enerji, Nəqliyyat və Ətraf mühit üzrə Alt Komitə // Azərbaycan Respublikası Energetika Nazirliyi, 16.04.2024 / URL: https://minenergy.gov.az/az/beynelxalq-teskilatlarla-elaqeler/ avropa-ittifaqi-azerbaycan-arasinda-enerji-neqliyyat-ve-etraf-muhit-uzre-alt-komite

8. Vaşinqtonda 8-ci Trans-Xəzər Forumu keçirilib / URL: https://www.yeniazerbaycan. com/ xeberlenti_e102250_az.html, 22.05.2024.

9. Манафов, А. Коридор через Азербайджан привлекает королей и шейхов // Haqqin.az, 24.05.2024 / URL: https://haqqin.az/news/317270